Azərbaycan Milli Elmlər Akademiyası
Qafqaz Müsəlmanları İdarəsi

1073279

# İSLAM MAARİFÇİLİYİ VƏ MÜASİR DÖVR

Beynəlxalq elmi konfransın materialları

Azərbaycan Milli Kitabxanası

**16-17 aprel 2015-ci il**

**Bakı**

[2016]

**Elnur Nəciyev**
*AMEA-nın A. A. Bakıxanov adına Tarix İnstitutunun doktorantı*

## Səfəvilərin sufi dərgahı - Ərdəbil

Orta əsrlərdə Azərbaycan ən mühüm şəhərlərindən biri Ərdəbil idi. Ərdəbil şəhəri müxtəlif dövrlərdə Azərbaycanın inzibati mərkəzi olmuşdur (5, 57). Monqolların hücumu dövründə bir çox başqa şəhərlərkimi dağıntılara məruz qalaraq, məhvə məhkum edilmişdi. Şəhərin yeni yüksəlişi XIV-XV əsrlərdə "Səfəviyyə" təriqətinin mülkü olması ilə başlamışdır. Təriqətin rəhbəri şeyx Səfiəddin İshaq Ərdəbilinin dövründən fəaliyyətə başlayan Ərdəbil "Darül-İrşadı", nəinki Azərbaycanda, bəlkə də bütün Şərq aləmində elmi-fəlsəfi mərkəzlərdən biri kimi tanınmışdır. Bu səbəbdən "Səfəviyyə" təriqətinin Dəşt-i Qıpçaq, Krım, Azərbaycan, Gilan, Təbəristan, Türküstan, Türkmənistan, Çin, Hindistan və hətta Seylona qədər yayılması fikri irəli sürülür (4, 22). Amma bu təriqətin ən fəal nümayəndələri daha çox Suriya, İran, Azərbaycan və Andoludakı türkmənlər olmuşdur. Məhz bu səbəbdən Faruk Sümer qızılbaşlıqdan bəhs edərkən "...təriqətin başı Azərbaycandakı Ərdəbil şəhərində, gövdəsi də Anadoluda idi" (6, 12)- deyə əsərində qeyd edirdi. Əhəmiyyətinin artması ilə əlaqədar olaraq şəhər "Darül-İrşad" (Hidayət evi) adı ilə şöhrət tapdı. Həm xürrəmilik və məzdəkilik, həm də sufizmlə bağlı olan, bir çox hallarda "qızılbaşlıq" adı ilə tanınan səfəviyyə fikri cərəyanı da burada formalaşdı. "Darül-İrşad" adi bir təriqət xanəgahı olmaqdan çox, zamanın tələblərindən irəli gələn bir fikir və ideologiya ocağı idi. Osmanlı mənbələrində bu ocağa "Ərdəbiliyyə", onun müridlərinə isə "Ərdəbil sufiləri" deyilirdi (4, 22). Bu ocağın banisi Şeyx Səfiəddin (1252-1334) idi və onun nəslindən bəhs edərkən akademik V.V.Bartold göstərirdi ki, "...Bu Ərdəbil şeyxləri, şübhəsiz, fars deyil, türk mənşəlidirlər" (7, 748). İ. P. Petruşevski də eyni fikri söyləmişdir: "İlk Səfəvi şeyxləri Ərdəbildə yaşamışlar, onların doğma dili Azərbaycan dili olmuşdur" (10, 362).

Maraqlıdır ki, XIV əsr müəllifi İbn Bəzzaz Ərdəbilinin yazdığına görə, Şeyx Səfiəddin Şiraz şəhərində olarkən məşhur fars şairi Sədi Şirazi ilə (öl. 1292) görüşmüş və görüş zamanı Sədi Şirazi ona "türk piri" deyə müraciət etmişdir [3, 10].

1501-ci ildə Şah I İsmayıl (1501-1524) tərəfindən Səfəvilər

dövlətinin bərqərar edilməsindən sonra Şeyx Səfiəddin ziyarətgahına daha çox diqqət yetirildi. Ərdəbil yeni dövlətin dini və siyasi mərkəzi oldu. Bu dövrdə Ərdəbildəki dərgahın mütəvəlliliyi (şəriət ehkamı üzrə tərtib edilmiş vəqfnamə adlı müvafiq sənəd əsasında müəyyən vəqf əmlakını idarə etməyə vəzifədar olan bir şəxs - E. N.) ən yüksək vəzifəyə sahib olan dövlət adamlarının əlində idi. Zahidinin "Silsilət ən-nəsəb əs-Səfəviyyə" əsərinin məlumatına görə, vəqfin mütəvəlliləri şah tərəfindən təyin olunurdu. 1601-ci ildə Şah I Abbasın (1587-1629) Zahidini bu vəqfin mütəvəllisi təyin etməsi və ondan əvvəlki mütəvəlli Mirzə İsmayılın işdən çıxarılması haqqında fərman verməsini buna örnək olaraq göstərə bilərik. Şah II Abbas (1642-1666) dövründə isə Ərdəbil bölgəsi vəqfin mütəvəlliləri idarəsindən çıxaraq şah və şahın ailəsinə bağlı olan "xasse-i şərifə" torpaqlarına qatılmışdır" (1, 95-96). Sufi dərgahının vəqfləri barədə Azərbaycana səyahət etmiş və 1670-ci ildə Ərdəbildə olmuş Yan Streys adlı səyyah geniş məlumat verirdi. Onun yazdığına görə, Ərdəbil şəhərində 200 ev, 9 hamam, 8 karvansaray, şəhər bazarı, bazardakı və şəhər meydanındakı yüzlərlə dükan, Təbrizdə 100 ev, 100 dükan, Qəzvində bir neçə karvansaray və hamam, Ərdəbilin 33 kəndi (kəndlərin adı yazılmamışdır), Təbrizin 2 kəndi, Sərabın 5 kəndi və həmçinin Astrabad, Gilan, Muğan və bir çox digər yerlərin gəlirləri bu dərgahın vəqfini təşkil edirdi (13, 285). Ərdəbilin inkişafını təmin edən ən mühüm amil şəhərin ticarətdə ən mühüm pay sahibi olan ipəyin ixrac yolu üzərində yerləşməsi idi. Bu səbəbdən gömrük vergisindən gələn gəlir hesabına şəhər xeyli qazanc əldə edirdi (5, 277). Şeyx Səfiəddin İshaq vəqfinin gəlirlərinin böyük olmasını Zahidinin məlumatlarından da anlamaq mümkündür. Erhan Arıklı tədqiqat əsərində həmin mənbəyə istinadən yazırdı ki, "Şeyx Şərəf bəy Zahidi mütəvəlli olduğu illərdə vəqfin bütün yeyəcək (qida) xərclərini və maaşlarını ödədikdən sonra vəqf üçün 1830 tümənə bərabər mal və mülk almış, 2000 tüməni isə vəqfin xəzinəsinə keçirmişdi (1, 96). Fransız səyyahı Şarden 1673-cü ildə Təbrizdən İsfahana gedərkən Savə adlı bölgədə Ərdəbil şeyxlərinin vəqfinə aid bir karvansaray, iki bağ, iki su anbarının olduğunu və bunların vəqfə şah I Abbasın arvadı Zeynəb bəyimin bağışladığını yazırdı. Şarden həmin mülklərin ildə 1000 frank gəlir verdiyini də əlavə edirdi. Beləliklə, XVII əsrin ortalarında Ərdəbildəki vəqfin çox zəngin və xeyli sayda gəlir mənbələri olan vəqf olduğunu söyləyə bilərik (1, 97).



Ərdəbildə mollalar, seyidlər, dərvişlər və ruhani təbəqəsinə mənsub olan başqa çoxlu imtiyazlı şəxslər yaşayırdılar. Ərdəbil və onun ərazisi xassə, şah mülkü dərəcəsinə daxil idi. Onunhakimləri (vəzirləri) şaha tabe olub şəxsən onun qarşısında hesabatverirdilər. Şəhərin bu xüsusi mövqeyi onu XVI əsrin sonu-XVII əsrin əvvəllərindəki müharibələr dövründə talan olunmaqdan xilas etdi. Bunagörə də, şəhər 1604-cü ildə əhalisinin çoxluğu və abadlığı baxımından karmelit nümayəndəliyini heyran qoymuşdu. Karmelitlər xronikasında qeyd olunur ki, "Ərdəbil kifayət qədər geniş və əhalisi sıx olan şəhərdir. O Xəzər dənizindən cənuba, su axını və yaşayış üçün hər cür məhsullarla bol olan düzənlikdə yerləşir. Qala deyil, heç divarlarla da əhatə olunmayıb" (12, 287). Karmelit Xronikasında Ərdəbilin sıx əhalisi olması deyilsə də, əhali sayı göstərilmir. Qeyd edək ki, 1671-ci ildə Ərdəbildə səfərdə olmuş holland səyyah Yan Streys şəhərdə 5 böyük küçə olduğunu qeyd edir: Dervansche (Dərvanə), Tabar (Tabər), Niardouwer (Niarduvər), Kumbulan (Kumbalan) və Keserkutse (Kafir-küçə) (11, 287). Yan Streys daha sonra qeyd edir ki, "Bu beş küçədən savayı çoxlu sayda kiçik və dar küçələr var; onlardan ən məşhurları: Bander Chan (Bəndər xan), Kamankar (Kamankar), Degme Daglir (Dəymə Dağlır) və Ursumi Məhəlləsi küçəsi (11, 288). Ümumiyyətlə, XIV-XVII əsrlərdə Ərdəbilin küçələrinin əksəriyyəti mərkəzi şəhər ansamblına yönəlmişdi. Mərkəzə təmayüllü küçələr şəhər ətrafını ticarət-dini kompleks ilə birləşdirərək, təxminən radial planlaşma sistemi əmələ gətirirdi (2, 94). XVI əsrdə aid şəhərin əhalisi ilə bağlı hər hansı bir məlumata təsadüf etmədik. Yalnız XVII əsrin əvvəllərində 50 min nəfər əhali yaşaması barədə məlumata rast gəlirik(9, 31). Mikayıl Heydərovun italyan səyyah Pyetro Della Valleyə istinadən yazdığı kimi, "Ərdəbil Persiyanın orta şəhərlərindən idi, nə ən böyüklərindən, nə də ən kiçiklərindən idi. Tikililəri adətən daha az cəlbedici olsa da, əhalisi belə bir şəhər üçün çox idi" (8, 116). XVIII əsrin əvvəllərinə qədər yüksəliş dövrü keçirən Ərdəbil şəhəri Səfəvilər dövlətinin digər şəhərləri kimi əsrin əvvəllərindən dərin tənəzzüllə üzləşdi. Bu tənəzzül Ərdəbilin Osmanlılar tərəfindən 1725-ci ilin dekabrında ələ keçirilməsi ilə daha da dərinləşdi. 10 il davam edən Osmanlı ağalığı dövründə Ərdəbil livası təşkil olundu. 2 şəhəri- Ərdəbil və Sərab şəhərləri, 644 kəndi və 19 məzrəsi olan Ərdəbil livası üçün 1728-ci ildə ayrıca bir

müfəssəl dəftər tərtib edildi. Bu dəftərdən məlum olur ki, Ərdəbil livasında 344 məskun və 300 boş kənd var idi. Qeydə alınmış kəndlərin yalnız 53,4 faizinin məskun olması, Osmanlı üsul-idarəsinin Ərdəbil livasında tətbiqindən əvvəl bu yerlərin ciddi problemlərlə üzləşdiyini göstərməkdədir. Ağır hərbi-siyasi proseslərlə yanaşı, heç şübhəsiz ki, sosial-iqtisadi problemlər də Ərdəbil livasının kəndlərinin belə böyük miqyasda boşalmasına, əhalinin digər yerlərə köç etməsinə səbəb olmuşdur. Boşalmış kəndlərin bir qisminin əhalisi də Osmanlı hakimiyyətini qəbul etmədiklərinə görə yurdlarını tərk etmişdir (1, 34-35). Bütün bu proseslərin nəticəsində Ərdəbil şəhərinin xeyli azalaraq cəmisi 3. 032 vergi mükəlləfiyyətli insan təşkil etmişdir (1, 81). Təhrir dəftərinə görə, Ərdəbil şəhərində ən çox insan (1. 066 nəfər) Niyazdəbil məhəlləsində qeydə alınmışdır. Şəhərin Darvaza məhəlləsində 834 nəfər, Kamilan məhəlləsində 430 nəfər, Niyaz məhəlləsində 388 nəfər, Kərrahi küçə məhəlləsində isə 314 nəfər vergi mükələfiyyəti daşıyanın adı dəftər salınmışdır. Ərdəbil nahiyəsi üzrə qeydə alınmış insanları şəhər əhalisi ilə birgə nəzərə alarsaq vergi mükələfiyyəti daşıyanların sayının 5. 266, yəni cəmi 26. 330 nəfər təşkil etməsi məlum olur (1, 82). 1730-cu ildə Ərdəbilin Nadir xan tərəfindən geri alınması da şəhərin vəziyyətində müsbət dəyişikliyə səbəb olmadı. 1734-cü ildə Rus səfiri Qolitsinin həkimi kimi Səfəvilər dövlətində səfərdə olan İohan Lerx yol qeydlərində Ərdəbil şəhərindən tamamilə yağmalanmış viranə bir şəhər kimi bəhs edirdi. Təsadüfi deyil ki, XIX əsrin I yarısında şəhərdə cəmi 500-600 ailə, təxminən 3000 nəfər əhali yaşayırdı. XIX əsr müəlliflərindən birinin Ərdəbil tarixindən bəhs edərkən yazdığı kimi şəhərin həmin dövrkü vəziyyətinə görə "indi az adama məlum olan bu şəhər vaxtilə Azərbaycanın həyatında çox böyük rol oynayırdı" (8, 57).

Beləliklə, Sufi dərgahı Ərdəbil şəhərinin "Səfəviyyə" təriqətinin meydana çıxması ilə yüksəliş dövrü keçirməsini və Səfəvilər dövlətinin süqutu ilə tənəzzülə uğradığını ardıcıl olaraq izləmiş olduq. Nəzərdən keçirdiyimiz məlumatlar bizə aşağıdakı nəticələri əldə etməyə imkan verir:

1. Ərdəbilin sufi dərgahının banisi və onun nəslindən olanlar türk idi.

2. Səfəviyyə fikir cərəyanı bütün Azərbaycan ərazisi üçünmövcud olmuş eyni ideoloji xəttin davamı idi. Sadəcə IX əsrdə bu xətt xürrəmilik adı altında təşəkkül tapmışdısa, XV-XVI əsrlərdə qızılbaşlıq adı altında mahiyyətini eynilə qoruyub saxlamışdı.

3. Səfəvilər dövründə sufi dərgahı olan Ərdəbilin ideoloji dəyəri çox böyük idi. Bunu Şeyx Səfiəddin İshaqın vəqfinin əhatə etdiyi ərazilər və gəlirləri bir daha sübut edir.

4. Ərdəbil şəhəri Səfəvilərin məhrəmi idi. Məhz bu səbəbdən də 1725-ci ildə Osmanlılar tərəfindən şəhərin işğalı əhali sayının yarıbayarı azalmasına və tənəzzül etməkdə olan bir dövlətin son qalasının süqutuna səbəb oldu.



**İstifadə olunmuş ədəbiyyat:**


1. Ərdəbil livasının müfəsəl dəftəri. Araşdırmanın və transliterasiyanın müəllifi Erhan Arıklı. Bakı: AMEA akad. Z. M. Bünyadov adına Şərqşünaslıq İnstitutu, 2004, s.857.
2. Muradov V.H. "Orta əsr Azərbaycan şəhərləri". Bakı: "Maarif", 1983, s.155.
3. Şeyx Səfi təzkirəsi ("Səfvətüs-səfa"nın XVI əsr türk tərcüməsi") tərtib və nəşrə hazırlayan M.Nağısoylu, S.Cabbarlı, R. Şeyxzamanlı; redaktor, izahların və lüğətin müəllifi M. Nağısoylu. AMEA M. Füzuli adına Əlyazmalar İnstitutu. Bakı: Nurlan, 2010, s.932.
4. Gündüz T. Son Kızılbaş Şah İsmail. İstanbul: Yeditepe yayınevi, 2014, s.175.
5. İslam Ansiklopedisi. cilt: 11. İstanbul, 1995, sayfa: 550 s.
6. Sümer F. Safevi devletinin kuruluşu ve gelişmesinde Anadolu türklerinin rolü. Ankara: Güven Matbaası, 1976, s.265.
7. Бартольд В.В. Сочинения, том II, ч. 1. М.: Издательство восточной литературы, 1963, с.1024.
8. Гейдаров М.Х. Города и городское ремесло Азербайджана XIII-XVII веков. Ремесло и ремесленные центры. Баку: Элм, 1982, с.283.
9. Гейдаров М. Х. Ремесленное производство в городах Азербайджана в XVII в. Баку: Издательство Академии Наук Азербайджанской ССР, 1967, с.200.
10. Петрушевский И. П. Ислам в Иране в VII-XV веках (курслекций). Л. : Издательство Ленинградского Университета, 1966, с.400.

11. Три путешествия / Я. Я. Стрейс; пер. Э. Бородиной; ред. А. Морозова. М.: Соцэкгиз, 1935, с.415.

12. A Chronicle of the Carmelites in Persia: The Safavids and the Papal Mission of the 17thand 18th Centuries. Edited and translated by Chick Herbert. 2 vols. Volume I. London: Eyre and Spottiswood. 1939, p.815.

13. Les Voyages de Jean Struys, En Moscovie, en Tartarie, en Perse, aux İndes, & en plusieurs, autres pais etrangers. Amstredam, Ches la Veuve de Jacob van Meurs. M. DC. LXXXI (1681), p.568.

**Резюме**

В статье рассказывается об Ардебильском городе, который был суфийским дергахом при Сефевидахв. В ходе исследования были проанализированы создание тариката «Сефевийе», основанного шейхом Сефи ад-Дином и его роль в возрождении и развитии города.

**Summary**

The article narrates about the city of Ardabil, which was the Sufi dergah in Safavid state. During the research analysed emergence of the Safaviyya order, founded by Sheikh Safiaddin and its role in the rebirth and development of the city.

**Açar sözlər:** Səfəvilər, Ərdəbil, Səfəviyyə, dərgah, vəqf, sufi, şəhər.

**Ключевые слова:** Сефевиды, Ардебиль, Сефевийе, дергах, вакф, суфий, город.

**Keywords**: Safavid, Ardabil, Safaviya, dergah, waqf, sufi, city.

# MÜNDƏRİCAT

**Azərbaycan Prezidenti İlham Əliyevin** Beynəlxalq konfransın iştirakçılarına ünvanladığı təbrik Məktubu ....... 3

**"İslam maarifçiliyi və müasir dövr" mövzusunda beynəlxalq konfrans**

AMEA prezidenti, akademik Akif Əlizadənin nitqi ....... 5

QMİ sədri, Şeyxülislam Allahşükür Paşazadənin nitqi ....... 10

DQİDK sədri Mübariz Qurbanlının çıxışı ....... 14

Akademik İsa Həbibbəylinin çıxışı ....... 20

Küveytin Vəqflər və İslam İşləri Nazirinin müavini, dr. Adil əl-Fəlahın çıxışı ....... 23

İsveçin QAİ direktoru dr.Svante Kornellin çıxışı ....... 25

Türkiyənin Diyanət İşləri Başqanının müavini Həsən Kamil Yılmazın çıxışı ....... 28

MİTA Mərkəzinin rəhbəri dr.Musa Fəqih Həqqaninin çıxışı ....... 31

Arxiyepiskop Aleksandr İşeinin çıxışı ....... 33

Özbəkistan EA vitse-prezidenti Baxrom Abdulxalimovun çıxışı ....... 35

Dağ Yəhudiləri dini icmasının rəhbəri Melih Yevdayevin çıxışı ....... 37

QMİ EDŞ sədri, akademik Vasim Məmmədəliyevin çıxışı ....... 39

**I Bölmə**

**"Qloballaşan dünyada islam maarifçiliyinin əhəmiyyəti"**

**I-ci hissə**

**Prof. Məcid Əbdüləziz ət-Türki** - "İslamda dini və mənəvi dəyərlər, dinlərarası birgə dəyərlər" ....... 43



**Səid Kamilev** - "Hərtərəfli İslam maarifçiliyi müsəlmanların qlobal təhdidlərə cavab verməsinin əsası kimi" ....... 59

**Baxrom Abdulxalimov** - "Bukhara - the outstanding center of Islamic enlightment" ....... 67

**Azadə Musayeva** - "Qurani-Kərim, qissələr və hədislərlə bağlı təlmihlər Gülşəni Bərdəinin türk "Divan"ı əlyazmalarında" ....... 73

**Fuad Nurullayev** - "İslamda maarifçiliyin yeri və onun əhəmiyyəti" ....... 84

**Füzuli Gözəlov** - "Çağdaş düşüncə baxımından İslamda bədəl qurbanı" ....... 90

**Dilavər Əzimli** - "İslam dünyasında elmin, maarifin inkişafında Təbriz məktəbinin rolu" ....... 101

**Almaz Ülvi (Binnətova)** - "Haqq aşığı Dədə Ələsgərin şeirlərində və sənətində dini maarifçilik motivləri" ....... 106

**Simran Həsənov** - "Qafqaz Müsəlmanları İdarəsinin İslam maarifləndirilməsində rolu: hüquqi aspektlər" ....... 115

**Rəhimə Dadaşova** - "Dinlərarası dialoq: əsas prioritet istiqamətlər və perspektivlər" ....... 124

**II-ci hissə**

**İbrahim Quliyev** - "İslam maarifçiliyində ailə mədəniyyəti və qadına münasibət (Hədisi-şəriflər kontekstində)" ....... 131

**Dürdanə Cəfərli** – "Müasir müsəlman ölkələrində "Quran islamı" anlayışı haqqında (dini maarifçilik kontekstində)" ....... 139

**Şahlar Şərifov** - "İslam maarifçiliyində İmam Əlinin (ə) rolu" ....... 152

**Aydın Əlizadə** - "İslamda reforma problemləri: onların ideoloji əsaslandırılması" ....... 159

**Fikrət Nəbiyev** – "Qloballaşma şəraitində əxlaqi-dini problemlər və onların həlli" ....... 171

**Rahil Nəcəfov** - "İslamda azad düşüncə və İslam fəlsəfəsi haqqında" ....... 174

**Aqşin Əliyev** - "Əhməd bəy Ağaoğlunun İslam maarifçiliyinə dair görüşləri" ....181

**Əntiqə Paşayeva** – "İslam maarifçiliyinin sosial həyatda zəruriliyi". 189

## II Bölmə

### "Multikulturalizm, dinlərarası dialoq və tolerantlıq mühitinin beynəlxalq əhəmiyyəti və bu prosesdə Azərbaycanın rolu"

#### I-ci hissə

**Gövhər Baxşəliyeva** - "İslamda dinlərarası dialoq və tolerantlıq mühitinin formalaşdırılması" ....197

**Dr. Hasan Kamil Yılmaz**- "Yetmiş iki millətə bir gözlə baxmaq" ....202

**Musa Fəqih Həqqani** - "Elm İslamın xitab dilidir" ....206

**Dr. Roman Silantyev** - "SSRİ-də müharibədən sonrakı dövrdə dinlərarası dialoq" ....209

**Dr. Akkan Suver** - "Tolerantlıq və mədəniyyət" ....218

**Dr. Svante Kornell** - "Sivil cəmiyyət və dünyəvi dövlət: regional və beynəlxalq kontekstdə Azərbaycan örnəyi" ....221

**Suleyman Dovlatov** - "Tolerantlıq və bəşəriyyət" ....224

**Faizullo Boboyev** - "Təbərinin xronikasında nübuvvət peyğəmbərlik hərəkatı və onun dinlərarası dialoqda rolu" ....226

**Rəbiyyət Aslanova**- "İslam dini fəlsəfəsinin maarifçilik potensialı-qlobal xaos və multikultural böhrandan ahəngə aparan yol kimi" ....244

#### II-ci hissə

**Etibar Nəcəfov** - "Azərbaycan multikulturalizmi dünya ölkələrinə örnək model kimi" ....253

**Azad Məmmədov** – "Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi-Azərbaycan Respublikası Prezidentinin siyasi iradəsinin təzahürüdür" ....262

**Əhməd Qəşəmoğlu** – "Azərbaycanın mütərəqqi multikulturalizm siyasəti" ....264



**Məmməd Rzayev** – "Şərq-Qərb mədəniyyətləri sistemində tolerantlıq şüuru" ....274

**Zəkafət Axundova** - "İslamofobiya nədir və necə yaranıb?" ..... 288

**Rəna Mirzəzadə** - Multikulturallıq din və gender dialoqunda.... 295

**Sakit Hüseynov** - "Dini tolerantlıq mədəniyyəti müasir dövrün tələbi kimi: Azərbaycan nümunəsi" ....306

**Asəf Qənbərov** - "Multikulturalizm: Birgəyaşayışın müasir konsepsiyası" ....318

**İmamverdi Həmidov**- "Xalq müdrikliyi islami dəyərlərin işığında" ....323

## III Bölmə

### "Dünya dinləri terrorizm, ekstremizm, separatizm və ksenofobiya təzahürünə qarşı"

#### I-ci hissə

**Əbubəkr Riyeger** - "İslam terrorizmə və ekstremizmə qarşıdır" ... 329

**Juha Saarinen** - "Hərbi islamçı və cihad hərəkatlarında xaricilərin, o cümlədən Finlandiya müsəlman icmaları nümayəndələrinin iştirakı məsələləri" ....333

**Tahirə Allahyarova** - "Dünyəvi dövlətdə dini radikallaşma təzahürlərinə qarşı maarifləndirmə işinin bəzi məsələləri" ......... 339

**Timur Kozırev** - "İslam Qazaxıstanda - eynilik, cəmiyyət, dövlət" ....347

**Dr. İndira Aslanova** - "Qırğızıstanda yerli cəmiyyətlərin radikalizm və ekstremizmə qarşı səfərbərliyi" ....366

**Gülzar İbrahimova** – "İslam tədrisinin təşkili və ekstremizm təhlükəsi" ....371

**Könül Bünyadzadə** - "İslam öz potensialını tam reallaşdırmamış ideya kimi" ....388

**Elsevər Səmədov** – "Müasir dövrdə radikalizmlə mübarizədə multikultural dəyərlərin rolu: dini plürallığın fəlsəfi təhlili" ....... 394

**II-ci hissə**

**Tahirə Əliyeva** - "Vəli" termini haqqında bir neçə söz ............ 404

**Zəkiyyə Əbilova** - "Monoteist dinlərdə Allah anlamı" ............ 409

**Rübabə Şirinova** – "Burhan ailəsinin nümayəndələrindən biri - Sadr əş-Şəriə əl-Əvvəl" ............ 416

**Radif Mustafayev** - "Dövlət - din münasibətlərinin tənzimlənməsinin neosekulyar əsasları" ............ 425

**Arzu Hacıyeva** – "Firudin bəy Köçərli İslam dini və Məhəmməd peyğəmbər (s) haqqında" ............ 428

**Eşqanə Babayeva** – "Nəcib Fazil Qısakürəyin nəsrində sufi-fəlsəfi ideyalar" ............ 436

## Yekun iclas

**Bölmə rəhbərlərinin hesabatlarının dinlənməsi**

**Yekun sənədin müzakirəsi və qəbul edilməsi**

**Dr.Adil əl-Fəlah** ............ 446

**Dr.Həsən Kamil Yılmaz** ............ 448

**Gövhər Baxşəliyeva** ............ 450

**Akademik Vasim Məmmədəliyev** ............ 452

**Akademik İsa Həbibbəyli** ............ 454

**Rəşad Əliyarlı** ............ 458

**Şeyxülislam Allahşükür Paşazadənin** yekun çıxışı ............ 460

**AMEA prezidenti, akademik Akif Əlizadənin** yekun nitqi ............ 464

"İslam maarifçiliyi və müasir dövr" Beynəlxalq elmi konfransının iştirakçılarının Azərbaycan Prezidenti Zati-aliləri İlham Əliyevə ünvanladıqları **Məktub** ............ 466

"İslam maarifçiliyi və müasir dövr" mövzusunda Beynəlxalq **Konfransın Kommünikesi** ............ 469



## Məqalələr

**Ağasəid Yaqubov** - "İslam maarifçiliyində təbliğat üslubu" ...... 472

**Anar Orucov** - "Azərbaycanda dini, mənəvi dəyərlər və müasir İslam mədəniyyəti" ............ 478

**Elçin Həsənli** - "Azərbaycanda dini maarifçilik və İslamın qeyri-ənənəvi təriqətlərindən qorunmasında Türkiyə ilə əməkdaşlığın rolu" .... 486

**Elnur Nəciyev** - "Səfəvilərin sufi dərgahı - Ərdəbil" ............ 493

**Elvin Talışinski** - "Религиозный фактор в системе информационной войны (в контексте армяно-азербайджанского конфликта)" ... 499

**Əlirza Qafarov** - "Haqq yolunun fədaisi" ............ 506

**Hafiz Abbasov** - "İslam maarifçiliyində Müslim ibn Həccac Nişapurinin "Səhih Müslim" əsərinin rolu" ............ 515

**Hilal Ağamoğlanov** - "İslam və təhsil" ............ 521

**İlkin Əlimuradov** - "IX-X əsrlər Azərbaycan alimi Əhməd Harun oğlu Bərdəlinin (əl-Bərdicinin) İslam maarifçiliyində rolu" ............ 527

**Naib Səttarov**-"İslam maarifçiliyində Heydər Əliyev fenomeni" ..536

**Pərviz Eyvazov** - "İslam maarifçiliyi və müasirlik" ............ 541

**Qəmər Cavadlı** - "İslam fiqhinin sekulyar bioetikaya münasibəti" ...549

**Rauf Sərdarov** - "İslamda humanizm məsələlərinə dair" ............ 559

**Rüfət Qarayev** - "İslam maarifçiliyində Əli ibn Əbu Talibin (ə) "Nəhcül-Bəlağə" əsərinin rolu" ............ 564

**Rüxsarə Quliyeva** - "İslamın təhsil konsepsiyası: qadın təhsili" .....570

**Samid Quliyev** - "Əhməd Ərdəbilinin Səfəvilər dövründə İslam maarifçiliyinin inkişafında rolu" ............ 576

**Samir İsmayılov** - "Dünya dinlərini birləşdirən məmləkət – Azərbaycan" ............ 582

**Samir Məmmədov** - "İmam Əlinin (ə) hərb məktəbi və müsəlman hərb sənəti irsinin tədqiqi və öyrənilməsinin zəruriliyi haqqında" ............ 587

**Sara Məmmədova** -"Ailə kitabxanası və onun islami tərbiyədə rolu" ....................................................................................................596

**Ülkər Əliyeva** -"Bakı İslam Universitetinin İslam maarifçiliyində rolu" ................................................................................603

**Yetər Əliyeva** - "İslamda xəttatlıq elm və incəsənət sahəsi kimi" ....608

**Zakir Quliyev** - "İslamda tətbiq edilən vergi məsələləri" ..........612

**Zülfüqar Fərzəliyev** - "Об исламском образовании в Азербайджане" .......................................................................................619

Çapa imzalanıb: 08.09.2016
Format: 70x100 1/16. Həcmi: 39,5.
Sifariş: 280. Tiraj: 250.

CBS POLYGRAPHIC PRODUCTION
Tel:447-75-05, Faks: 447-75-04

mətbəəsində çap olunub